*Nizamişünaslıq 14, №1, 2026, səh. 3-21*

https://doi.org/10.59849/3006-2403.2026.1.3

***Əlimuxtar MUXTAROV***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Gəncə Bölməsinin***
***Elmi işlər üzrə sədr müavini***
***ORCID ID: 0000-0002-7117-2163***
***E-mail: muxtarovalimuxtar@gmail.com***

# NİZAMİ GƏNCƏVİ - 885: AZƏRBAYCAN PREZİDENTİNİN BƏŞƏRİYYƏTƏ TƏQDİM ETDİYİ NİZAMİ GƏNCƏVİ NİZAMI

*"Nizamini biz tanıyırıq, Şərq ölkələri tanıyır. Amma lazımdır ki, Avropa da yaxşı tanısın. Avropada da tədqiqatçılar tanıyırlar, bir çox kitabxanalarda onun kitabları var. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur, təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!... Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə də onun əsərləri də yaşayır, özu də yaşayır", "Biz Nizami Gəncəvi ilə bəşəriyyəti qovuşdurmağa tələsirik".*

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli Lideri***

*"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması dünya miqyasında bir hadisə oldu. Biz bu Mərkəzi yaradarkən, əlbəttə, görürdük ki, bunun çox böyük gələcəyi var. Ancaq hesab edirəm, bir çoxları təsəvvür etmirdilər ki, bu Mərkəzin dünya miqyasında nə qədər böyük rolu olacaq. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən Qlobal Forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq beş dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda həm onlarla fəaliyyətdə olan, həm də keçmiş dövlət və hökumət başçıları iştirak edirlər. Hər il bu Forum keçirilir və Forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir"*

***İlham Əliyev***
***Azərbaycan Respublkasının Prezidenti***
**[6, s. 177]**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Biz Nizami Gəncəvi ilə bəşəriyyəti qovuşdurmağa tələsirik" tezisi müasir Azərbaycan dövlətinin Nizami Gəncəvi irsinin beynəlxalq miqyasda tanıdılması istiqamətində həyata keçirdiyi siyasətin ideoloji əsasını təşkil edir. Müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bu strateji xətt yeni məzmun və qlobal miqyas qazanaraq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması və Qlobal Bakı Forumlarının təşkili ilə özünün ən yüksək mərhələsinə çatmışdır. Bu gün Nizami Gəncəvinin humanizm, ədalət, tolerantlıq və birgəyaşayış ideyaları Azərbaycanın təşəbbüsü ilə dünyanın aparıcı siyasi və ictimai liderlərinin müzakirə etdiyi qlobal gündəliyin tərkib hissəsinə çevrilmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vasitəsilə Azərbaycan dövləti dahi mütəfəkkirin irsini yalnız ədəbi-mədəni sərvət kimi deyil, həm də bəşəriyyətin qarşısında duran problemlərin həllinə xidmət edən mənəvi-fəlsəfi bir yol xəritəsi kimi təqdim edir.

Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Nizami Gəncəvinin adı və ideyaları Gəncədən başlayaraq qlobal miqyasda sülhün, dialoqun və qarşılıqlı anlaşmanın rəmzinə çevrilmişdir.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev yazır: "Azərbaycan-Gəncə torpağı bəşəriyyətin ruhuna bir xəzinə, məlhəmdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzini məhz bu xəzinələrin dünyaya təqdim edilməsi məqsədilə təsis edib və hər zaman da qoruyub dəstəkləyir".

Təsadüfi deyildir ki, Nizami Gəncəvi özü də "Xəmsə"sində "Mənim Babilim Harutu yandıran Gəncədir" deyərək Gəncəsini də, əsərlərini də dərin əfsun adlnadıraraq, insanlığa dəva-dərman hesb etmişdir. Hətta Şirvanşah Axsitan dahi şairə məktubunda ona belə müraciət etmişdir: *"Ey dünyanın cadu-sözlü şairi"!*

İlk öncə Ulu Öndərimizin, cənab Prezidentimizin dərindən duyub dəyərləndirdikləri və dünyaya bəyan, təqdim etdikləri, müasir dünyanın da görkəmli dövlət, elm-ictimai xadimlərinin bu təqdimatlarla bilgiləndikləri Nizami sehrini, əfsununu aydınlaşdırmağa çalışaq...

Nizami Gəncəvi (1141-1209) ömrüboyu dövrünün mühüm mədəniyyət mərkəzlərindən olan Gəncədə yaşayıb və dünya xəzinəsinin nadir söz sənəti incilərini, əsərlərini bu şəhərdə qələmə almışdır. Onun əsərləri dünya poetik xəzinəsinin zirvəsində dayanır. Nizami Gəncəvinin yaradıcılığının başlıca mahiyyəti insandır, insanlığa sevgidir. Dahi Azərbaycan şairi əsərlərində dilindən, dinindən, milli mənsubiyyətindən aslı olmayaraq bütün insanlığı qucaqlamışdır. Nizami Gəncəvi əsərlərində elə bəşəri ideyalar irəli sürür ki, dünyanın hər bir xalqı özünü bu əsərlərdə tapa bilir, görə bilir. Bu anlayışlar isə Nizami Gəncəvinin mənsub olduğu Azərbaycan türklərinin soyundan, tolerantlığından, birgəyaşayışa əsaslanan həyat tərzindən irəli gəlir.

Nizami Gəncəvinin adı öz dövründən müasir günümüzədək Gəncə ilə elə bütövləşmişdir ki, elə həmahəngləşmişdir ki, klassik mütəfəkkirlər də çox vaxt Nizami Gəncəvinin adını çəkmədən görkəmli tədqiqatçısı professor, AMEA-nın müxbir üzvü Nüşabə Araslının da qeyd etdiyi kimi onu "Gəncə ustadı", "Gəncə xəzinadarı", "Gəncəli dahi" deyə yad etmişlər.

Məhz bütün bu tarixi və müasir mövcudiyyəti nəzərə alıb əsaslandıran nizamişünas alim, professor Rüstəm Əliyev yazırdı: "Nizami Gəncəvinin qeyri-adiliyi – belə bir şey yoxdur, Nizami Gəncəvi gerçəkliyin dahiyanə təzahürüdür, belə bir dahiliyin məhz Azərbaycanda, Gəncədə meydana gəlməsi isə tarixi zərurət idi. XII əsrdə Gəncədə Nizami Gəncəvi ilə başlayan, meydana gələn intibah nəinki Şərq dünyasını, eyni zamanda Qərb dünyasını da ağuşuna aldı və nəticədə Şərq İntibahının əsasları üzərində pyedestal kimi Nizami Gəncəvinin nəhəng şəxsiyyəti və dühası ucaldı" [13].

Cəmaləddin Xəlil Şirvaninin 1250-1260-cı illərdə mövzular üzrə toplayaraq Şirvanşah Əlaəddin Fəriborza ithaf etdiyi "Nüzhətül-məcalis" ("Ürəkaçanlar məclisi") kitabında X və XIII əsrlərdə Gəncədə bizə məlum olan şairlərdən başqa,(Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əbül Üla Gəncəvi, Rəziyyə Gəncəvi, Ömər Gənci, Əbubəkr ibn Xosrov əl-Ustad və b.) məlum olmayan 24 nəfər şairin, fikir adamlarının adlarını da çəkməklə əsərlərindən nümunə gətirməsi Gəncənin o dövrdə sahib olduğu elmi potensialının göstəricilərindən biri və ən bariz nümunəsidir.

Akademik İsa Həbibbəyli "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" monoqrafiyasında bu mövzuda söylədiyi mühüm fikrə toxunmaq istəyirik:"Nizami Gəncəvi Şərq İntibahının, renessansının əsas yaradıcılarından biridir. Şərq intibahının yaradllmasında iştirak edən mütəfəkkirlər çox olub. Hətta Şota Rustavelidən tutmuş Əlişir Nəvai, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, ümumən, XIII-XIV əsrlərə qədər bir çoxlarının adını çəkə bilərik. Ancaq

məsələ burasındadır ki, onların hər hansı biri olmasa, Şərq intibahı baş tutmuş sayıla bilər. Ancaq Nizami Gəncəvinin olmadığını təsəvvür etsək, Şərqdə intibah baş tutmuş sayılmaz. Beləliklə, Nizami Gəncəvinin Şərq intibahında bu qədər önəmli yeri vardır. Şərq intibahı Nizami Gəncəvi ilə başlayıb, Nizami Gəncəvi ilə davam edib və zirvəyə yüksəlmişdir" [9, s.10].

Nizami Gəncəvi Azərbaycan xalqının yetişdirdiyi və dünya ədəbiyyatına böyük töhfələr verən qüdrətli simalarından biri olmuşdur. Təsadüfi deyildir ki, Nizami Gəncəvini Şərqin və Qərbin böyük söz ustadları, görkəmli sənətkarları ilə müqayisə edən akademik İsa Həbibbəyli dahi Azərbaycan mütəfəkkirini dünya ədəbiyyatının Makedoniyalı İsgəndəri adlandıraraq yazır:

*"Makedoniyalı İsgəndər hərbi qüdrəti, gücü ilə, Nizami Gəncəvi isə ədəbi şöhrəti, əsərləri ilə dünyanı fəth edib".*

Nizami Gəncəvinin beş ölməz poeması, "Xəmsə"si dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirib.

Bu poemalar "Xəmsə" adı altında dünya ədəbiyyatı xəzinəsinə töhfələr verib. Nizami Gəncəvi Şərq intibahının zirvəsində dayanmaqla ədəbi məktəb yaratmışdır ki, bu məktəb bu gün də mədəni dünyada yaşayır. Ona görə ki, Nizami Gəncəvinin əsərlərindəki ideyalar dünyanı düşündürən ideyalardır. Nizami Gəncəvi XXI əsrdə əsərlərinin ideyaları, ruhu ilə dünyanı elmə, ədalətə, barışa, sülhə, xoşgörüyə, birgəyaşayışa, gender bərabərliyinə səsləyən dünya şairidir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının sabiq direktoru İsmail Seragəldin Nizami Gəncəvini qeyri-adi şəxsiyyət, fitri istedad sahibi, bir neçə dildə danışa bilən, ensiklopedik biliyə malik bir insan kimi səciyyələndirərək Nizaminin "Divan" yazdığını, lakin dünya ədəbiyyatı tarixinə adını "Xəmsə"si ilə həkk etdiyini ifadə edərək yazır:

*"Bu əsərlər səkkiz əsrdən çoxdur ki, yaşayır və dünyada qəbul edilir. Bunu dünyanın tanınmış tənqidçiləri də təsdiq edir. Nizaminin əsərləri bu gün mədəniyyətlərarası dialoq platforması kimi çıxış edir. Onun əsərlərində qadın təkcə gözəllik predmeti deyil, həm də ağıl sahibi kimi təsvir olunur".*

Nizaminin əsərlərindəki ideyaların genişliyindən danışan Kembric Universitetinin təmsilçisi Kristinvan Rumbeke hələ tələbəlik illərindən onun əsərlərinə aşiq olduğunu, bu sevginin indi də davam etdiyini yazır. "Dahi Nizami ədəbi qaynaqlardan və süjetlərdən yaradıcılıqla istifadə edir. Şairin ideyaları sadə və poetik şəkildə oxucuya çatdırmaq bacarığını xüsusi vurğulayan alim Nizaminin geniş dini biliklərə, eləcə də dövrünün elmlərinə sahib olduğunu yazır [17, s. 7].

Nizami Gəncəvi böyük elm adamıdır, böyük sənət adamıdır. Dahi insanşünasdır. Nizami Gəncəvi həm özünəqədərki, həm də özündən sonrakı ədəbiyyata elə bir nəfəs, anlam gətirib ki, insan öz ucalığını, ali varlıq olmasını, böyüklüyünü dərk etsin, anlasın. Onun təsvir etdiyi hər bir hadisə, surətlər, epizodlar, hər bir mətləb insanı insan olmağa səsləyir. Eyni zamanda bütün bunlarla yanaşı, dövrünün hökmdarlarına, ixtiyar sahiblərinə də insana dəyər verməyi tövsiyyə edirdi. Məhz buna görə də Nizami Gəncəvinin "Xəmsə"si ehtiva etdiyi mənaları etibari ilə bəşəri dəyərlər üzərində qurulmuş bir insanlıq dastanıdır.Yaradıcılığının mərkəzində insan dayanan Nizami Gəncəvinin əsərlərinin bu gün dünyanın hər yerində sevilə-sevilə oxunmasının səbəbi də budur. Nizami Gəncəvinin fəlsəfəsi bu idi ki, dünyada əbədi qalmaq istəyirsənsə, insanlığın yükünü çəkib, onları zəhmətə, doğruluğa, ədalətə səsləməlisən.

Nizami Gəncəvinin idealı bütün insanlıq, insana sevgidir. Kainatı və insanlığı sevmək bir fərdi sevməkdən başlanır. Fərdi sevə bilməyən bəşəriyyəti, xalqı da sevə bilməz. Bu yüksək qayələrə gəlib çatdığı üçündür ki, istedadsızların qələmində əyləncəyə, mədhiyyə

vasitəsinə çevirilmiş şeir Nizami Gəncəvi ilhamında dirilmiş və əbədiyyətə vəsiqə qazanmışdır. Dahi mütəfəkkir özünədək dəbdə olan və çox vaxt yalnız bir ovuc hökmdarlara, tacidarlara, sərvət, mənsəb sahiblərinə xidmət edən saray ədəbiyyatı tilsimini qırmış, poeziyanı bütünlüklə xalqın istifadəsinə vermiş və nəticədə insan mərkəzli poeziya ərsəyə gətirmişdir. Məhz bu özəlliklərinin nəticəsidir ki, dünya filosofları, mütəfəkkirləri, şərqşünasları Nizami Gəncəvi poeziyasını inqilabi poeziya adlandırırlar.

Azərbaycan Respublikasının Xalq şairi, ədəbiyyatşünas Xəlil Rza Ulutürk "Bədii sözün tanrısı" məqaləsində yazır: *"Sirlər xəzinəsi"ni tərcümə edib başa çıxdıqdan sonra mənə bəlli oldu ki, Nizami Gəncəvi üçün başlıca məsələ insan uğrunda mübarizədir. İnsan uğrunda mübarizə onun, demək olar ki, bütün əsərlərindən yağışdan sonrakı səmada görünən göy qurşağı kimi keçib gedir. Nizami Gəncəvinin fikrincə insan dünyanın əşrəfidir. Başqa varlıqlardan fərqli olaraq Allah ona zəka bəxş etmişdir. Buna görə də o bəxtiyardır və bütün xilqətlərin həyatına cavabdehdir. Zira insan bu canlı-cansız xilqətlərdən kənarda yaşaya bilməz"* [18, s. 78].

Müəllif Nizami Gəncəvinin "Sirlər xəzinsəi" poemasından tərcümə edib, gətirdiyi aşağıdakı beytlərlə fikini belə əsaslandırır:

Sən ey fələklər qədər uca, dəyərli insan!
Nazını çəkməkdədir bu yer, bu göy, kahkaşan.
Heç xəbərin varmı ki, səsin yetişir hara?
Sənin zənn etdiyindən xeyli ucalıqlara!
Sən dünya çəmənində bir az zəif, kəmnəfəs,
Fəqət ən çevik ceyran sənlə yarışa bilməz.
Bütün canlı xilqətlər qulundur qoşun-qoşun,
Onlar toruna düşmüş quşların, qəfəs quşun.
Onların üstündə sən hüma quşu kimisən,
Yerində əyləş, az ye, incitmə onları sən [18, s. 78].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və möhtərəm Prezidentimiz İlham Əliyev dahiyanə şəkildə Nizami Gəncəvinin yaradıcılığında ehtiva edilən bu bəşəriliyi mənsub olduğu Azərbaycan xalqı ilə yanaşı dünya xalqlarına da çatdırmağı qarşılarına müqəddəs bir vəzifə kimi qoymuşdular.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi dühası, irsi ilə bağlı müəyyən etdiyi ən strateji hədəflərdən biri, başlıcası bu idi ki, dahi mütəfəkkirin yaradıcılığında qırmızı xətlə keçən humanizm, insan sevgisi, dürüstlük, mərhəmət, zəhmət, sülh, ədalət, bəşərilik, multikulturalizm, tolerantlıq, birgəyaşayış konsepsiyasının dünya səviyyəsində təqdim edilməsinə nail olmaqla Nizami Gəncəvinin timsalında mənsub olduğu Azərbaycan xalqının böyüklüyünü, müdrikliyini dünyaya təqdim etsin. Ulu Öndər Heydər Əliyev Nizami Gəncəvinin yaradıcılığını bu kontekstdə nəzərdən keçirərkən söylədiyi dahiyanə fikirlər görkəmli dövlət xadimi Heydər Əliyevin Nizami Gəncəvi yaradıcılığına necə vaqif olduğunun şahidi oluruq.

Ulu Öndərin Nizami Gəncəvi yaradacılığı ilə bağlı kosepsiya xarakteri daşıyan fikirlərində yer alan: "Nizamini biz tanıyırıq, Şərq ölkələri tanıyır. Amma lazımdır ki, Avropa da yaxşı tanısın. Avropada da tədqiqatçılar tanıyırlar, bir çox kitabxanalarda onun kitabları var. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur, təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!... Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə də onun əsərləri də yaşayır, özu də yaşayır", "Biz Nizami Gəncəvi ilə bəşəriyyəti qovuşdurmağa tələsirik" [10, s.17] tezisləri, ideal və ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əldə rəhbər tutularaq, *"Onun bəşər sivilizasiyasının inkişafındakı rolunu bütün zəmanələrin bədii və*

*fəlsəfi təfəkkürünün katalizatorları olmuş Aristotel, İbn Sina, Dante, Şekspir və Puşkin kimi dühalarla müqayisə etmək olar"* [20, s. 12] dahiyanə, müdrik təfəkkürü ilə Nizami Gəncəvi hadisəsini Azərbaycan qaynaqlı ümumtürk hadisəsi kimi dövrünə qədər və dövründən sonra yüksəlmədiyi zirvəyə çatdıraraq dünya miqyaslı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılmasına nail oldu.

Filologiya elmləri doktoru, millət vəkili Elnarə Akimovanın da qeyd etdiyi kimi *"Biz Heydər Əliyev yolunun İlham Əliyevdə davam tapmasından bəhs edərkən yalnız siyasi-diplomatik rakursu nəzərdə tutmuruq. İlham Əliyev elmə, sənətə yanaşmada da Heydər Əliyev qərarlarının qaldığı yerdən başlayır, yaxud verilən sərəncamların yenilənməsində, ədiblərin, görkəmli şəxsiyyətlərimizin dəyərləndirilməsində meyarları qoruyur"* [4].

Azərbaycan Prezidentinin 23 dekabr 2011-ci il Sərəncamına əsasən dahi Azərbaycan şairinin 870 illik yubiley tədbirlərinin keçirilməsi çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan nizamişünaslığının mühüm tarixi nailiyyəti kimi Ulu Öndərin bu sahədə apardığı islahatların, mübarizələrin, məqsədlərinin, arzularının təcəssümü və çiçək açması olduğu kimi, həm də tarixi Ata vəsiyyətinin reallaşması idi. Çünki Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Nizami Gəncəvi, Nizamişünaslıq sahəsində də vaxt və zaman baxımından özünün etmədiklərinin, edə bilmədiklərinin gələcək nəsillər tərəfindən, övladı-layiqli varisi İlham Heydər oğlu Əliyev tərəfindən daha da inkişaf etdirilərək davam etdiriləcəyinə əmin idi. Bütün olanları və olacaqları göz önünə gətirən Ulu Öndər Heydər Əliyev deyirdi: *"Biz o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt, yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın. Mən məmnunam ki, bunu etdik. Amma indi içərisinə də, çölünə də baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu məqbərəni bundan da gözəl edəcəklər. Mənim buna şübhəm yoxdur. Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir"* [12].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müdrikliklə, uzaqgörənliklə 2012-ci ildə Beynəlxalq Nizami Gəncəvi Mərkəzini təsis etməsi məhz Ulu Öndər Heydər Əliyevin böyük Azərbaycan şairi Nizmi Gəncəvi, Azərbaycan Nizamişünaslığı ilə bağlı hədəf və məqsədlərinin, arzularının həyata keçməsi, gerçəkləşməsi idi. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 may 2017-ci ildə Ümummilli Liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdəki nitqi bu amallar üzərində qurulmuşdur. *"O, inanırdı və bildirdi ki, onun davamçıları onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz - onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, onun ideyalarını yaşadırıq. Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik.. Heydər Əliyev dahi şəxsiyyətdir, böyük Liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı"* [5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər tərəfindən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı zamanında görülən işləri daha da məqsədyönlü inkişaf etdirərərk zamanın, günün tələbləri çərçivəsində "Nizami Gəncəvinin ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır" fəlsəfəsi ilə nizamişünaslıqda yeni bir era formalaşdırdı" [2].

Ulu Öndər Heydər Əliyevin apardığı siyasətdə uğurlarının başlıca meyarlarından olan məqsədyönlülük və ardıcıllıq prinsipini əsas götürən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi

şəxsiyyəti, irsi ilə bağlı həyata keçirdiyi təxirəsalınmaz fəaliyyətlərin nəticəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin araşdırılması və onun dünyada təbliğ olunması məqsədi ilə təsis edildi. Qeyri-kommersiya və qeyri-siyasi beynəlxalq təşkilat olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirlərinin keçirilməsi çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir. Dünyamiqyaslı Mərkəzin qərarverici qurumu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən təşkil olunmuş Beynəlxalq İdarə Heyəti idarə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaranmasından, fəaliyyətindən, üzvlərindən bəhs edərkən söylədiyi fikirlər Azərbaycan Respublikası Prezidentinin daim diqqət mərkəzində olan və dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Beynəlxalq Platformanın dünyadakı nüfuzunu bir daha nümayiş etdirir.

*"Nizami Gəncəvi Mərkəzinin yaradılması dünya miqyasında bir hadisə oldu. Biz bu Mərkəzi yaradarkən, əlbəttə, görürdük ki, bunun çox böyük gələcəyi var. Ancaq hesab edirəm, bir çoxları təsəvvür etmirdilər ki, bu Mərkəzin dünya miqyasında nə qədər böyük rolu olacaq. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən qlobal forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq beş dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda həm onlarla fəaliyyətdə olan, həm də keçmiş dövlət və hökumət başçıları iştirak edirlər. Hər il bu Forum keçirilir və Forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir"* [6, s. 177].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa himayəsi altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan nizamişünaslığının ən mühüm tarixi nailiyyətidir ki, bu da öz növbəsində dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Azərbaycandan-Gəncədən başqa ikinci bir ölkədə, şəhərdə əsası qoyulub fəaliyyətə başlaya bilməzdi. Çünki Nizami Gəncəvinin bəşəri ideyalarını ən doğru və ən dolğun şəkildə yalnız mənsub olduğu Azərbaycan xalqı, Azərbaycan dövləti təqdim edə bilərdi ki, bunu da Azərbaycan Respublikasının müdrik Prezidenti İlham Əliyev XXI əsrdə həyata keçirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 2013-cü ildən etibarən təşkil etdiyi Qlobal Bakı Forumları da məhz dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin mənsub olduğu Azərbaycan xalqının milli və bəşəri dəyərlərinin, tolerantlığının, multikultural düşüncəsinin, həyat tərzinin, yaşayaışının, insan sevgisinin, sülh, ədalət ideyyalarının bütün dünya xalqlarına ərməğanı, səslənişidir. Xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondunu tərəfindən dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə bağlı dünya miqyasında təşkil edilən konfranslar, simpoziumlar, sərgilər, tədbirlər, "Xəmsə"sinin, miniatürlərinin dünyanın müxtəlif dillərinə tərcümə edilib nəşr edilməsi, dünya ölkələrində abidələrinin ucaldılması bu siyasətin qoşa qanadının təşkil edir.

Nizami Gəncəvi, onun milli mənsubiyyəti, yaradıcılığının ümumtürk hadisəsi olması, əsərlərində təbliğ edilən bəşəri dəyərlər, tolerantlıq kimi anlayışların beynəlxalq aləmdə daha geniş təbliğ edilməsi məsələləri ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ Baş Nazir olduğu dövrlərdən məşğul olmuş, Gəncə şəhərinə hər səfərində dahi

mütəfəkkirin məqbərəsini ziyarət etmiş və bu sahədə məqsədyönlü, ardıcıl proqramlar, işlər həyata keçirmişdir ki, görülən işlərin zirvəsini Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması təşkil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzininin təsis edilməsindən 17 ay öncə - 26 aprel 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının İllik Ümumi Yığıncağında Azərbaycan alimləri ilə görüşərkən Azərbaycan elminin, elm adamlarının elmin bütün sahələri ilə, xüsusilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı qarşılarına qoyduğu məqsəd, toxunduğu mətləblər bir daha möhtərəm Prezidentimizin Nizami Gəncəvi haqqında planlarının uzun müddətli strategiyaya əsaslandığını nümayiş etdirir. *"Nizami mərkəzinin yaradılması ilə əlaqədar səslənən təkliflər hesab edirəm ki, təqdirəlayiqdir. Heç kimdə şübhə yoxdur ki, Nizami Gəncəvi dahi Azərbaycan şairidir. Bunu bütün dünya bilir. Əgər belə ehtiyac yaranıbsa ki, bunu kiməsə sübut edək, biz bunu çox asanlıqla sübut edə bilərik. Nizaminin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir, doğmadır. Nizaminin əsərləri əlbəttə ki, milli şüurumuzun tərkib hissəsidir. O ki qaldı hansısa qüvvələr tərəfindən bu əsərlərə yiyə çıxmaq, yaxud da özünküləşdirmək məsələsinə, əfsuslar olsun ki, biz belə hallarla dəfələrlə üzləşirik. Bunun da əsas səbəbi ondadır ki, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özünküləşdirmək üçün cəhdlər göstərirlər. Bu təkcə ədəbiyyatla, yaxud da ki, Nizaminin əsərləri ilə bağlı olan məsələ deyildir. Bizim musiqimiz ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi Üzeyir bəyin əsərləri özünküləşdirilir. Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, onu deyə bilməz. Necə ki, Qarabağ deyəndə, onlar üçün bu, sadəcə bir sözdür, onu anlamırlar. Çünki bu, erməni sözü deyildir. Ona görə də belə hərəkətlər əlbəttə ki, bizi çox üzür.*

*Biz öz milli, mədəni irsimizi qorumalıyıq. Bunun üçün təbliğat işləri daha da güclü olmalıdır. Bizim imkanlarımız daha da geniş olmalıdır. Baxın, indi demək olar ki, bütün dünyada Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir, 50-dən yuxarı ölkədə Azərbaycan səfirlikləri fəaliyyətə başlamışdır və uğurla fəaliyyət göstərirlər. Yəni, indi bizim təbliğat imkanlarımız genişdir. Biz heç vaxt, tarix boyu başqa xalqın milli dəyərinə, yaxud da ki, milli irsinə göz dikməmişik. Ancaq əfsuslar olsun ki, bizə qarşı həmişə belə cəhdlər olub. Yenə də deyirəm, bunun əsas səbəbi Azərbaycan xalqının istedadı və mədəniyyətimizin zəngin olmasıdır. Ancaq biz əlbəttə ki, mədəni irsimizi qoruyacağıq, bütövlükdə müstəqilliyimizi qoruyacağıq, müstəqil seçimimizi qoruyacağıq. Əminəm ki, Azərbaycanın inkişafı çox parlaq, çox uğurlu olacaqdır. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır"* [1].

Müzəffər Ali Baş Komandanımız, cənab İlham Əliyevin daim diqqət mərkəzində olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezidentimizin himayəsi altında eyni zamanda Madrid Klubunun üzvləri ilə birlikdə hər il Bakıda təşkil edilən Qlobal Bakı Forumlarının təşkilatçısı kimi də beynəlxalq səviyyədə fəaliyyət göstərən mərkəzlərdən birinə çevirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 yanvar 2021-ci ildə imzaladığı 2408-№ -li Sərəncamla "Nizami Gəncəvi İli"nin elan edilməsi ilə bağlı imzaladığı tarixi sənədin əhəmiyyətindən, beynəlxalq miqyasından bəhs edərkən Nizami Gəncəvi Beynəlxalq Mərkəzini və onun həyata keçirdiyi Forumları yüksək qiymətləndirmiş və mədəniyyətimizin, ədəbiyyatımızın təbliğindəki müstəsna xidmətlərini yüksək qiymətləndirmişdir: *"Bizim zəngin ədəbiyyatımız dünyada tanınır və biz haqlı olaraq öz dahi şairlərimizlə fəxr edə bilərik. 2021-ci il mənim Sərəncamımla "Nizami Gəncəvi İli" elan olunur. 2021-ci ildə biz Nizaminin 880 illik yubileyini qeyd edəcəyik, yubiley həm Azərbaycanda, həm dünyada geniş*

*qeyd olunmalıdır. Dahi Azərbaycan şairi Nizaminin əsərləri dünyaya daha geniş təqdim edilməlidir. Bildiyiniz kimi, artıq uzun illərdir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi fəaliyyət göstərir və bu Mərkəzə mənim xüsusi diqqətim vardır. Mərkəz humanitar qeyri-hökumət təşkilatı kimi formalaşsa da, hazırda mərkəzin fəaliyyəti çox genişdir, çoxşaxəlidir. Hər il keçirilən Qlobal Bakı Forumu, - əlbəttə, 2020-ci ildə pandemiyaya görə keçirilməyib, - dünya miqyasında öz layiqli yerini tutubdur. Bir daha demək istəyirəm ki, bu il biz Nizami Gəncəvinin yubileyini geniş qeyd etməliyik. 2019-cu il isə digər dahi Azərbaycan şairi Nəsimi ili olmuşdur. Bu, onu göstərir ki, dövlət tərəfindən və şəxsən Prezident tərəfindən bizim ədəbiyyatımıza, bizim dahi şairlərimizin xatirəsinə çox böyük hörmət var, qayğı var. Nizami, Nəsimi, Füzuli və digər dahi Azərbaycan şairləri dünya ədəbiyyat xəzinəsinə çox böyük töhfələr vermişlər"* [21, s. 1-3]. Ölkəmizin, ədəbiyyatımızın, ümumən mədəniyyətimizin təbliğində mühüm rol oynayan Bakı Qlobal Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı və Ölkə Başçısının da birbaşa himayədarlığı ilə 2013-cü ildən 2025-ciilədək on iki dəfə yüksək səviyyədə təşkil edilmişdir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin rəsmi səhifəsindəki əsasnaməsində oxuyuruq: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM)—Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il Sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir. Azərbaycan Respublikasının Prezidentinin dəstəyi ilə fəaliyyətini davam etdirən qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçıları və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Mərkəz Bakı şəhərində yerləşir. Ali idarəetmə orqanı dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən ibarət İdarə Heyətidir. İdarə Heyəti 20 nəfər üzvdən ibarətdir. Mərkəzin Avropa qitəsindən 25 ölkədən 53, Amerika qitəsindən 2 ölkədən 6, Asiya qitəsindən 12 ölkədən 15, Afrika qitəsindən 4 ölkədən 5 üzvləri vardır. (ümumilikdə 79 üzv).

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Vikipediya" bazasında Mərkəzin məqsəd və vəzifələri ilə bağlı bölmədə yazılır: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, həmçinin fəaliyyətlərə töhfə verməkdir. Eyni zamanda Azərbaycan elm və mədəniyyətinin nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin irsinin araşdırılması, dünyada təbliği, eləcə də dialoq, tolerantlıq, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqun təşviq edilməsidir. Həmçinin Nizami Gəncəvinin ədəbi irsinin araşdırılması və təbliği məqsədilə nüfuzlu yerli və xarici alimlərdən ibarət alimlər şəbəkəsi formalaşdırılmışdır. Mərkəz qarşıda qoyulan məqsədlərə nail olmaq üçün ətrafında nüfuzlu sabiq dövlət və hökumət başçılarını, həmçinin beynəlxalq ekspertləri birləşdirir" [16].

Mərkəzin həmsədrləri Latviya Respublikasının sabiq Pezidenti (1999–2007) xanım Vayra Vike-Freyberqa, Dünya Bankının sabiq vitse-prezidenti (1992–2000), Misirin "İsgəndəriyyə" kitabxanasının sabiq direktoru, professor Dr.İsmayıl Seragəldindir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri aşağıdakılardır. Vaira Vike-Freiberqa, Latviya Respublikasının sabiq Prezidenti (Həmsədr NGBM), İsmayıl Seragəldin, İsgəndəriyyə Kitabxanasının direktoru (Həmsədr NGBM), Tarya Halonen, Finlandiya Respublikasının Prezidenti 2000–2012, Kerri Kennedi, Robert. F. Kennedy İnsan Hüquqları Təşkilatının Prezidenti, Marianna V.Vardinoyannis, UNESCO-nun xoşməramlı səfiri, İvo Yosipoviç, Xorvatiya Respublikasının Prezidenti 2010–2015, Rosen Plevneliev, Bolqarıstan Respublikasının Prezidenti 2012–2017, Petar Stoyanov, Bolqarıstan Respublikasının Prezidenti 1997–2002, Boris Tadiç, Serbiya Respublikasının Prezidenti 2004–2012, Filip Vuyanoviç, Monteneqronun Prezidenti 2003–2018, Zlatko Laqumdziya, Bosniya və Herseqovinanın Baş Naziri 2001–2002, Yves Leterme, Belçika Krallığının Baş

naziri 2008; 2009–2011, Əmr Musa, Ərəb Dövlətləri Liqasının Baş katibi, 2001–2011, Eka Tkeşelaşvili Gürcüstanın Baş nazirinin müavini 2010–2012, Noelen Heyzer Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini 2007–2015, David Q. Pan Schwarzman Kollecinin İcraçı Dekanı, Tsinghua Universiteti, Katerina Yuşşenko, Ukraynanın birinci xanımı 2005–2010, Jan Baderşneyder, Vitse-prezident, ExxonMobil 2000–2013, Rövşən Muradov, Baş Katib, NGBM.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəxri üzvləri aşağıdakı görkəmli simalardan ibarətdir. Emil Konstantinesku - Rumıniya Prezidenti 1996–2000, Stepan Mesiç - Xorvatiya Respublikasının Prezidenti 2000-2010, Fəridə Allaghi - Liviyanın Avropa Birliyindəki keçmiş səfiri, Nazim İbrahimov, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri 2008–2018, Nasim Əhməd Şah, Dekan, Sosial Elmlər Fakültəsi (2014-17); Keçmiş İslam Araşdırmaları Bölümü, Kəşmir Universiteti, Srinagar, Hindistan.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hal-hazırda Madrid Klubu, Podgoricki Klubu (Bosniya), Marianna V. Vardinoyannis Vəqfi (Yunanınstan), Quqenhaym (ABŞ), Çin İnnovasiya və İnkişaf Strategiyası İnstitutu (ÇXR), Çin Xalq Xarici İşlər İnstitutu (ÇXR), Taihe İnstitutu (ÇXR), Amerika Xarici Siyasət üzrə Milli Komitə (ABŞ), Berqqruen İnstitutu, Robert F. Kennedy İnsan Hüquqları (ABŞ), Schwarzman Alimləri (ÇXR), İtalyan Beynəlxalq Təşkilatları Cəmiyyəti (İtaliya), Dünya Sənət və Elm Akademiyası (WAAS) kimi nüfuzlu beynləxalq və regional təşkilatlarla sıx əməkdaşlıq edir.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin tövsiyələri əsasında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Nizami Gəncəvinin poeziyası ilə təbliğ etdiyi dəyərləri özündə cəmləşdirən bir çox şəxsiyyətlərə və qurumlara təqdim etmək üçün "Nizami Gəncəvi Beynəlxalq Mükafatı" nı təsis etmişdir. Ümumilikdə mərkəz tərəfindən dünya üzrə 21 nəfər şəxs Nizami Gəncəvi Beynəlxalq Mükafatını almışdır, Vaira Vike-Freiberqa, Latviya Respublikasının sabiq Prezidenti (Həmsədr NGBM), İsmayıl Seragəldin, İsgəndəriyyə Kitabxanasının direktoru (Həmsədr NGBM), Melanne Verveer, ABŞ-nin Qlobal Qadın Problemləri üzrə keçmiş xüsusi səfiri, Georgetown Qadınlar, Sülh və Təhlükəsizlik İnstitutunun icraçı direktoru, Süleyman Dəmirəl, Türkiyə Prezidenti 1993-2000, Bill Klinton, ABŞ Prezidenti 1993-2001, Marqaret Tetçer, İngiltərə Baş Naziri 1979-1990 İsveç Kraliçası Silviya, İsveç Krallığının Kraliça Konsortu, Butros Butros Qali, Birləşmiş Millətlər Təşkilatının Baş katibi 1992-2996, Henri Kissincer, ABŞ Dövlət Katibi 1973-1977, Rosen Plevneliev, Bolqarıstan Respublikasının Prezidenti 2012-2017, Əbdül Fəttah əs-Sisi, Misir Ərəb Respublikasının Prezidenti Marianna Vardinoyannis, UNESCO-nun xoşməramlı səfiri, İordaniya Kralı II Abdullah, İordaniya Haşimilər Krallığının Kralı, Mehriban Əliyeva, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Rabbi Arthur Schneier, New York City Park East Sinagogunun baş ravvini, Əşrəf Qəni, Əfqanıstan İslam Respublikasının Prezidenti, Robert F. Kennedi, İnsan Haqları: Robert F. Kennedy 1965-1968-ci illərdə Nyu-Yorkdan ABŞ senatoru (Alıcı: Kerry Kennedy, Robert F. Kennedy İnsan Hüquqları Prezidenti), Con Makkeyn, Arizona'dan Amerika Birləşmiş Ştatları Senatoru 1987-2018(Alıcı: Cindy McCain, McCain İnstitutunun İdarə Heyətinin sədri), Prokopis Pavlopoulos, Yunanistan Respublikasının Prezidenti, Cefri Saks, Columbia Universitetinin Universitet professoru; SD üzrə Baş katibin xüsusi müşaviri, Kaylaş Satyarti, Nobel Sülh mükafatçısı 2014.

Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ənənəvi olaraq Bakıda təşkil olunan Qlobal Bakı Forumuna və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif yüksək səviyyəli görüşlərə ev sahibliyi edərək ən yüksək səviyyəli əməkdaşlıq platformasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi təşəbbüsü ilə yaradılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyanın tanınmış siyasi və ictimai xadimlərindən, liderlərindən ibarət həmsədrləri və üzvləri də belə bir beynəlxalq Mərkəzin, Platformanın

cənab İlham Əliyevin rəhbərliyi altında fəaliyyət göstərməsini yüksək qiymətləndirmiş və bu mərkəz vasitəsilə dünyanın qarşılaşdığı problemlərin həlli istiqamətində aparılan müzakirələri olduqca əhəmiyyətli hesab etmələri ilə yanaşı, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, Nizami Gəncəvi irsinin dünyada tanıdılmasında xüsusi rol oynadığını vurğulamışlar.

**İsmayıl Seragəldin** - Dünya Bankının sabiq vitse-prezidenti, Misirin İsgəndəriyyə kitabxanasının sabiq direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri: *"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzu dünyada artmaqdadır. Beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələr yaradılır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürümü bildirirəm.*

*Ölkə* (Azərbaycan Respublikası -red:Ə.Muxtarov) *getdikcə daha çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycan bu tədbirlərə aktual problemlərin həlli üçün bir çox ölkənin və mədəniyyətin təcrübəsini cəlb edir. Azərbaycan demokratik Konstitusiya qəbul etmiş, hələ 1918-ci ildə qadınlara səs hüququ verən ilk ölkə olub. Təəssüf ki, ölkə 1920-ci ildə Sovet İttifaqına birləşdirildi, amma bu qısamüddətli tarixlə fəxr etmək olar. 1991-ci ildə müstəqilliyi əldə etdikdən sonra isə Azərbaycan qadınların bütün hüquqlara sahib olduğu çiçəklənən ölkəyə çevrildi. Radikal axınların öz mövqelərini möhkəmləndirdiyi əhalisinin böyük əksəriyyətinin müsəlmanların olduğu bəzi ölkələrlə müqayisə etdikdə görürük ki, Azərbaycan hökuməti ölkədə sabitliyi və çiçəklənməni təmin edib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, həmçinin adı beynəlxalq qarşılıqlı anlaşma və digər mədəniyyətlərə hörmət anlayışları ilə birgə səslənən, Azərbaycan millətinin ən məşhur nümayəndələrindən biri olan XII əsr filosofu və şairi Nizami Gəncəvinin yüksək tolerantlıq dəyərlərini hamıya xatırladır. Bu tədbirlərdə* (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi Bakı Qlobal Forumları-red: Ə.Muxtarov) *immiqrasiya, Avropaya inteqrasiya, sülh çağırışları, mədəniyyətlərarası dialoq, tolerantlıq və bir çox digər məsələlər müzakirə olunur.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi Nizami Gəncəvinin idealları əsasında qurulub və düşünürəm ki, poeziyaya Nizami Gəncəvi kimi rəng qata biləcək başqa birisi yoxdur. "Biz bu ideyanı düşünənləri alqışlayırıq. Gəncədə yaşayanlara qibtə edirəm. Çünki onlar Nizami Gəncəvinin yurdunda yaşayırlar. Dahi şair və müdrik Nizami Gəncəviyə hörmət edən hər kəsə qoşulmaq mənim üçün böyük şərəfdir.Azərbaycanda olanda Gəncəyə getdim və məqbərəsini ziyarət etdim.Alman Götedən çağdaş şairlərə, azərbaycanlı Qara Qarayevdən Qərbdən Erik Kapetana qədər bir çox sənətkarları bu günə qədər ilhamlandırmağa davam edən qlobal bir şəxsiyyətdir.*

*Dahi Nizami əsərlərində səbirli, ədalətli olmağı, zorakılığı deyil, sülhü üstün tutmağı, cəmiyyətlərin xoşbəxt yaşamalarını təbliğ edib. Hətta bir çox əsərləri bu günümüzdə də aktualdır. Nizami Gəncəvinin əsərləri insanı müdrikləşdirir"* [19].

**Vayra Vike–Freyberqa** - Latviyanın sabiq Prezidenti və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri: *"Artıq onuncu dəfədir Bakı Forumuna toplaşırıq və ilbəil məmnunluqla görürük ki, onun inandırıcı qüvvəsi, onun müxtəlifliyi və müstəsna keyfiyyətli təcrübəsi, intellektual potensialı baxımından əhəmiyyəti artır. Bakı Forumu, əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi olmadan baş tuta bilməzdi. Prezident lap ilk günlərdən bizə öz dəstəyini verdi. Qlobal Bakı Forumunu dünyanı narahat edən çağırışların həlli yollarının tapılması ilə bağlı fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətli hesab edirik"* [7].

*Düşünürəm ki, müasir dünya Nizaminin yaşadığı XII əsr haqqında daha geniş məlumata malik olmalıdır. Fikrimcə, dünya hələ bu dahi mütəfəkkirin irsi haqqında az məlumatlıdır. Latviyada Nizami haqqında eşidən bir neçə insan tanıyıram. Maraqlı fakt odur*

*ki, onlar sovet dövründə bu mütəfəkkir haqqında eşidiblər. Qərbdə yaşayan alimlər, tədqiqatçılar onun əlyazmalarından xəbərdardırlar. Əsərlərinə çəkilmiş miniatür sənəti ilə maraqlanırlar. İncəsənətə önəm verən, dünya mədəniyyəti ilə maraqlanan avropalılar və amerikalılar Nizamini dahi şəxsiyyət kimi dəyərləndirirlər, əsərlərini sevirlər. Təəssüf ki, Nizaminin əsərlərinin dünya dillərinə tərcümələri azdır. Bu baxımdan hesab edirəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas prioritetlərindən biri də budur. Onun əsərləri, "Xəmsə" ingilis, fransız, alman, rus, çin və s. əsas dünya dillərinə tərcümə olunmalıdır. Düzdür, onun doqquz əsr öncəki tarixə malik olan poeziyasını tərcümə etmək çətindir. Mənə gəlincə, Nizami Gəncəvinin poeziyası ilə bağlı araşdırma aparmaq və bu araşdırmaları hekayələrin strukturu ilə birləşdirmək istərdim. Bilmək istərdim ki, o, əsərlərində ən çox nədən bəhs edir. Çünki mən Latviyanın ənənəvi poeziyası ilə də yaxından maraqlanıram. Əgər mənim başqa ömrüm olsaydı, yəqin ki, fars dilini öyrənərdim və Nizamini orijinalda oxuyardım. Amma bu mümkünsüzdür. Buna görə də yalnız tərcümələrdən istifadə edə bilərəm.*

*Azərbaycan xalqının böyük irsinə- sirli Nizami Gəncəviyə olan hörmət məni heyran etdi. Həqiqətən adını tarixə yazan, unudulmayan, universal bir ziyalıdır. Belə bir şəxsiyyət bütün bölgənin mədəniyyətinə müsbət təsir göstərir"* [7].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 25 iyun 2015-ci ildə imzaladığı Sərəncamla Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri İsmayıl Serageldini və Vayra Vike-Freyberqanı Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edilmişlər.

Eyni zamanda 29 aprel 2015-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqavə Dünya Bnkının sabiq direktoru, Misirin İsgəndəriyyə Kitabxanasının sabiq direktoru İsmail Serageldin "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medal"ı ilə təltif ediliblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin, üzvlərinin, nümayəndələrinin günümüz üçün aktuallıq kəsb edən fəaliyyətlərindən, eyni zamanda Nizami Gəncəvinin və mənsub olduğu Azərbaycan xalqının tolerantlığından, multukulturalizmindən bəhs edən fikir və dşüncələri bu gün və gələcəkdə bu istiqamətdə böyük elmi tədqiqatların, tezislərin bazasını formalaşdırır.

Nəzərə alsaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədirləri və üzvləri müasir dünyanın ən nüfuzlu dövlət və hökumət başçıları, nümayəndələridir, deməli, Nizami Gəncəvinin və mənsub olduğu Azərbaycan xalqının tolerant həyat tərzini, haqq və ədalət yurdu, məkanı, olduğunu, müdrikliyi və istedadını, multikultural düşüncələrini, təfəkkürünü dünyanın ən yüksək tribunalarından təbliğ edilməsinə geniş meydanlar açılmışdır ki, bütün bunların da müəllifi, banisi Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevdir.

**Walter Fust-İsveçrənin Azərbaycandakı sabiq səfiri:** *"Nizami Gəncəvinin müdrikliyini və düşüncələrini bölüşdüyü üçün, paylaşdığı üçün Azərbaycana təşəkkür edirəm".*

**Dr. Roza Otunbayeva-Qırğızıstan Respublikasının parlamentinin deputatı:** *"Artıq mədəni və mənəvi məkanımızı birləşdirmək, yəni nəsillərin ulu Nizami Gəncəvinin ruhu ilə şeir dünyasına daxil olmaq, eləcə də mədəniyyətmizin qohumluğunu və birliyini anlamaq üçün zaman və vaxt gəldi yetişdi".*

**Susan Greefield Baroness Greefield-İngiltərə Oxsford Universitetinin professoru:** *"Nizami Gəncəvi XII əsrdə günəşli Azərbaycanda anadan olan və ölməz "Xəmsə" si incəsənətin estetik gücünü göstərən dünya ədəbiyyatı və fəlsəfəsinin, Şərq intibahının ən böyük təmsilçisidir".*

**Süleyman Dəmirəl-Türkiyə Cümhuriyyətinin doqquzuncu prezidenti:** *"Nizami Gəncəvi əsirlərin içərisində yox olmamış, nəsillər davam etdikcə hörmət, izzət diqqət görmüş, böyük bir alim olaraq haqqında bəhs edilmişdir.Bu gün də Onun yaradıcılığının izləri gənc nəsillər üzərində özünü hiss etdirməkdədir.Nizami Gəncəvi barışı, sevgini, qardaşlığı təbliğ etmişdir.Bugünkü dünyada sadəcə Azərbaycanda deyil, bir çox yerlərdə diqqəti özünə cəlb etməkdə davam edir.Türk dünyasının mədəniyyətini inşa edən böyük insanlardandır.Nizami Gəncəvi milyonların qəlbində yaşamağa davam edəcəkdir"* **(AMEA Gəncə Bölməsi Elektron Xidmətlər şöbəsi).**

**Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev:** *"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nəşri olan "Qələmin Sehri - Nizami Gəncəvinin "Xəmsəsi"ndən seçilmiş əlyazmalar" kitabı haqqında: "Azərbaycan-Gəncə torpağı insanlığın ruhuna bir xəzinə, dərmandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzini məhz bu xəzinələrin dünyaya təqdim edilməsi məqsədilə təsis edib və hər zaman da qoruyub dəstəkləyir".*

**Petru Luçinski-Moldovanın keçmiş prezidenti:** *"Mən Nizami Gəncəvinin aforizmləri ilə bağlı 4 dildə kitab nəşr etmişəm. Bu kitab Azərbaycan, Moldova, rus və ingilis dillərindədir. Prezident İlham Əliyevin qəbulunda olarkən kitabın birini şəxsən ona təqdim etdim. Eyni zamanda tədbirdə iştirak edən nümayəndələrə də kitab bağışlamışam. Mən Nizami Gəncəvi haqqında çoxdan bilgiyə malik olduğuma görə məmnunam. Demək olar ki, onun bütün əsərlərini oxumuşam. Gənclik illərimdə Opera və Balet Teatrında "Yeddi gözəl" baletinə tamaşa etmişəm. Moldovada Nizamiyə böyük sevgi var və 2005-ci ildə paytaxt Kişineuda Prezident İlham Əliyevin iştirakı ilə Nizaminin heykəlinin açılışı olmuşdu. Çox şadam ki, Bakıda belə bir tədbirdə iştirak etdim".*

**Ceyms Riçard Mançam-Şeysell Adaları Respublikasının banisi, sabiq prezident:** *"Forumda gördüklərimdən çox təsirləndim. Ona görə ki, toplantının ideyası çox maraqlı və əhəmiyyətlidir. Dünyada sülh və stabilliyin əldə olunması baxımından müştərək cəmiyyət çox vacibdir. Bu baxımdan toplantıda səsləndirilən bütün fikirlər, çıxışlar dünyanı yalnız sülhə səsləyir.*

*Nizami Gəncəvi dünya şöhrətli şair olub. Onun yazdığı əsərlər bütün zamanlarda öz aktuallığını qoruyub saxlayır və insanları sülhə səsləyir. Belə bir mütəfəkkiri olduğuna görə Azərbaycan xalqı xoşbəxtdir və eyni zamanda dünya bu dahini tanımalıdır. Ən əhəmiyyətlisi isə budur ki, şair istər öz dövründə, istərsə də müasir dövrdə həm ədəbiyyata, həm də cəmiyyətə təsir edə bilib. Nizaminin vətənində olduğuma və bu forumda iştirakıma görə çox xoşbəxtəm. Bakını ilk dəfə gördüm və bu şəhərə, onun insanlarına vuruldum. Şəhər o qədər gözəl və əsrarəngizdir ki, baxdıqca doymaq olmur. Bu şəhəri daha da gözəlləşdirən insanların qonaqpərvərliyi və istiqanlılığıdır".*

**Harri Yakobs-Hindistan Elm və İncəsənət Akademiyasının vitse-prezidenti:** *"Forumun ideyası olduqca vacibdir. Ona görə ki, indi bütün dünyada müzakirələr yalnız iqtisadi inkişafdan gedir. İnsanlar bu istiqamətdə nələrisə müzakirə edir, rəqəmlər üzərində baş sındırırlar. Bir sözlə, statistik göstəricilər liderlik edir. Amma başa düşmürlər ki, dünyanın başqa tərəfi də var. Burada səslənən fikirlər, müzakirə olunan məsələlər mənim vətənim Hindistanla yanaşı, başqa ölkələrə də mesajdır. Biz ölkəmizdə bu mesajı, ideyanı çox sürətlə yaymalıyıq. Nizami yaradıcılığı ilə yeni tanış olmuşam. Doğrudur, mən ədəbiyyat mütəxəssisi deyiləm, lakin bir mədəniyyət xadimi kimi deyə bilərəm ki, onun əsərlərindəki universal dəyərlər, humanizm məni, sözün həqiqi mənasında, təəccübləndirdi. Bu əsərlərin mövzusunu ümumilikdə belə xarakterizə etmək olar: ictimai siyasət, müştərək humanizm. Nizaminin əsərlərində, doğrudan da, mədəniyyət baxımından bəşəriyyətə inteqrasiya ideyası mövcuddur. Bu ideyalar Azərbaycandan bütün dünyaya yayılmalıdır".*

**Aurelia Qriqoriu-Moldovanın ombudsmanı:** *"Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirak etmək mənim üçün böyük şərəfdir. Qlobal səviyyədə belə bir tədbirin keçirilməsi xüsusilə son dövrlər üçün çox aktualdır. Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycanın paytaxtında belə bir mövzuda keçirilən forum dünyaya başqa bir tərəfdən yanaşmağa mesaj verir: müştərək cəmiyyət və insanpərvərlik. Azərbaycan Prezidenti İlham Əliyevin konfransdakı çıxışı təqdirəlayiq idi. O, nitqində müasir dünyamız üçün maraqlı və prioritet fikirlər səsləndirdi. Bununla da görmək olur ki, ölkəniz bütün istiqamətlərdə inkişaf edib. Forumda keçmiş liderlərin iştirak etməsi də tədbirin əhəmiyyətini göstərir".*

**İvo Slaus-Xorvatiyanın Dünya Elm və İncəsənət Akademiyasının prezidenti:** *"Nizami dahi şair olub. XII əsrdə yaşayıb-yaratmasına baxmayaraq, əsərləri bu günlə səsləşir və onun irsinə multikulturalizm aspektindən yanaşmaq lazımdır. Biz alimlər müasir dövrdə çoxmədəniyyətliliyi təbliğ edir, insanları ədalətə səsləyirik. Amma bir çox ölkələrin xəbəri yoxdur ki, Azərbaycanda hələ XII əsrdə öz əsərləri ilə belə bir ideyanı təbliğ edən dahi mütəfəkkir yaşayıb-yaradıb. Nizami Gəncəvinin əsərləri dünyanın ən müxtəlif dillərinə tərcümə olunmalı, akademiyalarda tədqiq olunub tanıdılmalıdır. Yalnız bu yolla biz alimlər, mədəniyyət adamları dahi mütəfəkkiri layiqincə təbliğ edə bilərik. Onu da qeyd edim ki, bu mənim Azərbaycana ilk səfərimdir. Bakının bu qədər gözəl və heyrətamiz bir şəhər olduğu heç ağlıma da gəlməzdi. Şəhərin memarlığı, şərq və qərb üslubunda tikililər məni heyran etdi. Dənizkənarı bulvar isə mənə qeyri-adi bir təsir bağışladı. Mən bu şəhəri və onun insanlarını sevdim və belə bir beynəlxalq tədbirə dəvətə görə təşkilatçılara minnətdaram"* [15].

Dünyanın görkəmli dövlət və ictimai, elm xadimlərinin Azərbaycan, Nizami Gəncəvi haqqında söylədikləri bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, tarixini, ədəbiyyatını, mədəniyyətini, xüsusilə böyük Azərbaycan şairi Nizami Gəncəvi irsini son 20 ildə beynəlxalq aləmdə strateji, dolğun hədəf və məqsədlərlə təbliğ etməsinin nəticəsidir.

Azərbaycan Prezidentinin uzagörən, müdrik siyasətinin, idarəçiliyinin nəticəsi olaraq ərsəyə gələn Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi mütəfəkkirin yaradıcılığının və mənsub olduğu Azərbaycan xalqının milli və və bəşəri dəyərlərinin bütün dünyaya bəyan edilməsidir. Azərbaycan Prezidentinin bu sahədə atdığı tarixi addım dünya xalqıarının öz dillərində də Nizami Gəncəvini dərk, idrak etmələrinə səbəb oldu. Çünki Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ətarfında toplaşanların hər birisi öz dövlətlərinin, xalqlarının görkəmli dövlət və ictimai xadimləri olmaqla yanaşı, eyni zamanda Azərbaycan şairi Nizami Gəncəvinin ideyalarının ətarfında birləşən, toplaşan müasir tarixi şəxsiyyətlərdir. Azərbaycan nizamişünaslığının bu böyük tarixi uğurunun müəllifi, banisi müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

Akademik Rafael Hüseynov yazır: *"Artıq doqquz əsrdir ki, Nizami Gəncəvi millətinin, yurdunun xidmətindədir və o, bir övladın öz millətinə və yurduna edə biləcəyindən qat-qat artığını edib. Doqquz əsrdir ki, nəsil-nəsil insanlar onun sözünün cazibəsindədir. Nizami Gəncəvi XII yüzildə yaşadı, XIII əsrin başlanğıcında həyatdan köçdü. Ancaq dünyadan getmədi, dünyada və insanlarla qaldı, çünki bəşəriyyətə əsrlərlə yaşayacaq "Xəmsə"ni yadigar qoymuşdu. (red: Ə.Muxtarov: "Axı həm də dahilərin doğum tarixləri olsa da, ölüm tarixləri olmur"). İnsanlarla həmişəlik qalacaq o məsnəvilər qatarını yaratmaq üçün Nizami Gəncəvi yalnız ona nəsib olan istedadla kifayətlənmədi, zəhmətlərə qatlaşdı, gecə-gündüz çalışdı, oxudu, öyrəndi. Ancaq çalışmaq, oxumaq, öyrənmək, mənbələrə dalmaq üçün dilləri bilmək lazım idi və Nizami, özünün yazdığına görə, azı beş-altı dil bilirdi* [9, 328] *və həmin dillərdə olan qaynaqlardan gen-bol yararlanırdı. İbranicə, yunanca, farsca, ərəbcə ən köhnə qaynaqlardan tutmuş çağında yaranan ədəbiyyatacan çox şeyləri oxudu, canına hopdurdu. Və içərisində həmin möhkəm təməli qurandan sonra belə sağlam və etibarlı bünövrə üzərində o*

*çağlarda da, ondan sonrakı yüzillər boyu da hər kəsin həsəd ucalığına aparacağı bir söz imarəti ucaltdı. Nizami azı beş-altı dil bilməyinə bilirdi. Ancaq bu gün – XXI yüzildə onun danışdığı dillərin miqdarı saysız-hesabsızdır və Nizami lap çoxdan, hələ sağlığından yorulmaz bir səyyaha çevrilib Gəncənin, Azərbaycanın hüdudlarından kənara çıxaraq dünyanı qarış-qarış gəzir. Bu gün Nizami yalnız azərbaycanlı deyil. İndi o, ingiliscə danışır, demək, həm də ingilisdir, italyanca, almanac, fransızca və dünyanın onlarla dilində insanlarla məhrəm həmsöhbətə çevrilir. Hansı xalqla hansı dildə danışırsa, Nizami bu gün həm də o xalqın övladı sayılır, çünki onu yaxından tanıyınca, onun ruh dünyasına daxil olunca həmin uzaq xalqların təmsilçiləri də Nizamini ayrı bir xalqın övladı kimi deyil, elə özlərindən biri kimi qəbul edir, öz məşhur qələm sahiblərindən, düşüncə adamlarından fərqləndirmədən qəlblərinə yaxın tuturlar. Nizami bu gün dünyanınkıdır. Amma dünyanınkı olan, bütün xalqlarınkı olan, çox xalqların elə doğma övladı kimi qavranılan Nizami hər kəsdən daha əvvəl azərbaycanlıdır, Azərbaycanınkıdır, Gəncəninkidir"* [11, s. 8].

Təsadüfi deyildir ki, Gəncə torpağının XX əsrdə yetişdirdiyi görkəmli söz adamı Məmməd Alim də öz nəzmində bu məsələyə özünəməxsus münasibət bildirirdi:

Ruhunu ruhumdan ayırmaq çətin,
Sən əvvəl mənimsən, sonra hamının...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi şəxsiyyəti, irsi ilə bağlı Azərbaycana bağışladığı, bəxş etdiyi bu uğurlar tarixən Azərbaycan ziyalılarının uğrunda mübarizə apardıqları, lakin əldə edə bilmədikləri nailiyyətlərdir. Məhz bu kontekstdən yanaşaraq deyə bilərik ki, Ölkə Prezidenti İlham Əliyevin nail olduğu nailiyyətlər uzaq və yaxın keşmişdən bugünədək keçən dövrdə dünyalarını dəyişən və yaşayan Azərbaycan ziyalılarının görmək istədikləri, xəyallarında, arzularında yaşatdıqları bir amal, məqsəd, mühüm nəticə idi.

XX əsrin əvvəllərindən başlayaraq dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin milli mənsubiyyətinin təhrif olunduğu dövrlərin başlanğıcında Gəncədə akademik Həmid Araslının müəllimi olmuş Mirzə Məhəmməd Axundovun, Firidun bəy Köçərlinin, Salaman Mümtazın, Əliabbas Müznibin, Cəfər Cabbarlının, Məmməd Əmin Rəsulzadənin, Məmməd səid Ordubadinin, Mikayıl Rəfilinin, Həmid Araslının, Mircəlalın, Mirzə İbrahimovun, Səməd Vurğunun və onlarla belə ziyalılarımızn bu istiqamətdə həyata keçirdikləri fəaliyyətlərin, tədqiqatların, apardıqları mübarizənin bütöv və son təntənəsini XX əsrin 60-cı illərinin sonlarından etibarən Ulu Öndər Heydər Əliyev yekunlaşdırdı. Doğrudur, XX əsrin 40-cı illərində milli ziyalılaımız Leninqrad orientalistlərinin Nizami Gəncəvi ilə bağlı formalaşan yanlış fikirlərini, bumlarını dağıdaraq 40-cı ilin ilk yeddi ilindı iki dəfə Nizami Gəncəviyə yubiley keçirməyə nail olsalar da, bütövlükdə şüurlarındakı şübhələri tam yox edə bilməmişdilər. Məhz bu missiyyanı Ulu Öndər Heydər Əliyev 1969-cu ildən etibarən Azərbaycana rəhbərlik etməyə başladığı dövrdən məqsədli və ardıcıl fəaliyyəti ilə sonlandırmış oldu. Ümummilli Lider Heydər Əliyev Nizami Gəncəvinin köklü Azərbaycan şairi olmasını təkcə elmi-ədəbi səviyyədə deyil, öz nüfuzundan, bacarığından istifadə edərək beynəlxalq siyasi arenada da təsdiq etdirmiş oldu. Ulu Öndərin SSRİ səviyyəsində tək azərbaycanlı olaraq yüksəldiyi mövqedə vəzifəcə birinci, ikinci stansiyalarda olan insanların qarşısında "Nizami Gəncəvi elə bir dahi sənətkardır ki, onun yubileyi hər il keçirilməlidir" tezisi, çıxışı o dövrə qədər milli şüuru daim boğan SSRİ miqyasında görünməyən hünər və Nizami Gəncəviyə milli yanaşmanın tarixi proqramı idi.

XX əsrin əvvəllərindən 40-cı illərə qədər Azərbaycan nizamişünaslığında qarşıya qoyulan hədəf ilk öncə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini SSRİ və onun hüdudları xaricində Azərbaycan şairi kimi tanıtmaq idi ki, bu missiyanı da qeyd etdiyimiz kimi Ulu Öndər Heydər Əliyev həyata keçirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə müasir dünyadakı ali, uca nüfuzundan istifdə edərək Nizami Gəncəvi irsi, yaradıcılığı ilə bağlı həyata keçirdiyi qlobal layihələrlə, proqramlarla, tədbirlərlə Azərbaycan nizamişünaslığına ömür vermis insanların bütün arzularını gerçəyə çevirdi. Möhtərəm Prezidentimiz zəngin və praqmatik təfəkkürü ilə Nizami Gəncəvini dünyanın mərkəzinə gətirdi. Prezidentimiz bu işləri o qədər həssaslıqla, səbirlə, təmkinlə, dünya təcrübəsini öyrənməklə həyata keçirdi ki, nəticədə Nizami Gəncəvinin adı, ideyaları, problemlərdən çıxış yolu kimi təqdim etdiyi istiqamətlər müasir dünyanın qlobal problemlərinin həllində aparıcı bir mexanizmə çevirildi.

Ölkə Başçısı İlham Əliyevin həm ölkə daxilində, həm də xaricində Azərbaycan nizamişünaslığının inkişaf etdirilməsi istiqamətindəki həyata keçirdiyi unikal, alternativi olmayan fəaliyyəti nəticəsində Azərbaycan dünya Nizamişünaslığının mərkəzinə çevirilmişdir. Ademik İsa Həbibbəylinin bu kontekstdə olan fikirləri möhtərəm Prezidentimizin bu sahədə apardığı ardıcıl siyasətin mühüm nəticələrinə həsr olunmuşdur. *“Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ili “Nizami Gəncəvi ili” elan etməsi ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin və böyük qayğının əməli ifadəsidir. Bu, həm də Prezident İlham Əliyevin Azərbaycan tarixinə, mədəniyyətinə və ədəbiyyatına, adlı-sanlı ədəbi-tarixi şəxsiyyətlərimizə yenidən qayıdış istiqamətində apardığı ardıcıl siyasətin növbəti təzahürüdür.*

*Bundan əvvəl, 2019-cu ilin “Nəsimi ili” adlandırılması bu görkəmli şair və mütəfəkkirin Azərbaycan və dünyaya yenidən tanıdılması sahəsində mühüm addımların atılmasına, ciddi dönüşün baş verməsinə şərait yaratdı. Hesab edirəm ki, Azərbayanda və dünyada kifayət qədər tanınan və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini də müasir dövrdə azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə tanıtmağa ehtiyac var.*

*Nizamişünsalıq dünya elmi olsa da, Azərbaycan dünya Nizamişünaslığının mərkəzidir. Dünya ölkələrində Nizami Gəncəvi haqqında yazılanlar tərəzinin bir gözünə, Azərbaycanda aparılan tədqiqatlar, çap olunan kitablar və tərcümələr tərəzinin o biri gözünə qoyulsa, Azərbaycan Nizamişünaslığı ağır gələr.*

*Prezidentin “Nizami Gəncəvi İli” ilə əlaqədar imzaladığı sərəncam vaxtilə Ümummilli Lider Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq, başlanmış mühüm işləri daha geniş miqyasda və əhatəli şəkildə, yaradıcılıqla davam etdirmək üçün də geniş meydan açır. Bu baxımdan Nizami Gəncəvinin əsərlərinin dünya dillərinə tərcüməsi, “Xəmsə”nin akademik nəşrinin hazırlanıb çap olunması, görkəmli sənətkarın haqqında xarici dillərdə tanıtma kitablarını yazılıb nəşr etdirilməsi baxımından da qarşıda mühüm vəzifələr durur”* [8].

Bu gün Azərbaycan Republikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaranan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Prezidentimizin himayəsi altında Mərkəzin həyata keçirdiyi Qlobal Bakı Forumları Nizami Gəncvinin adı ilə BMT-nin dayanıqlı inkişaf proqramı əsasında sülh, ədalət, aclığa son, birgəyaşayış, tolerantlıq, dünyanın ərzaq problemi, gender bərbaərliyi kimi problemlərinin müzakirə edildiyi bir beynəlxalq platformaya çevirilmişdir ki, bu da son 20 ildə İlham Əliyevin rəhbərliyi altında Azərbaycan nizamişünaslığının dünya səviyyəsində əldə etdiyi bir uğurdur.

Azərbaycan nizamişünaslığının yüksəldiyi zirvənin müəllifi, banisi olan Azərbaycan Respublikasının Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vasitəsilə dünyaya təkcə Nizami Gəncəvinin Azərbaycan şairi olmasını deyil, eyni zamanda Azərbaycan həqiqətlərini də bəyan etmiş oldu. Nəzərə alsaq ki, ildən-ilə sıraları genişlənən Qlobal Bakı Forumlarının iştirakçıları mənsub olduqları ölkələrin ən nüfuzlu nümayənədələridir və bu

nümayənədələrin iştirak etdikləri toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yüksək kürsüdən, yüksək nida ilə *"Nizami Gəncəvi Azərbaycanın qədim şəhərlərindən olan özünün doğma Gəncə şəhərində dünyaya göz açıb, yaşayıb, orada vəfat edib və dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir"* [3] tezisini qonaqların nəzərinə çatdırır, deməli, Nizami Gəncəvinin Azərbaycan şairi olması Forumda iştirak edən millətlərin sayı qədər Azərbaycan həqiqətləridir ki, bu da dünyaya verilən ən təsirli və dolğun mesajdır.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəcamı ilə Beynəlxalq Mərkəzin vasitəsilə yarandığı gündən etibarən Qarabağın işğaldan azad olunmasına qədər olan dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çiyin-çiyinə çalışaraq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz rol oynadı. Vətən Müharibəsindəki tarixi Zəfərimizə qədər Prezidentimizin himayəsi altında Mərkəzin təşkil etdiyi bütün Qlobal Bakı Forumlarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ermənistanın Azərbaycanın 20 faizdən çox torpağını iğal alatında saxladığını, işğal altında qalan torpaqlarımızda ədəbi-tarixi abidələrimizin, milli-mənəvi dəyərlərimizi əks etdirən, zənginləşdirən mədəniyyət nümunələrimizin vandalizmə məruz qaldığını dilə gətirməsi qeyd etdiyimiz arqumentlərin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi dühası, şəxsiyyəti ilə bağlı elə bir düşünülmüş, müdrik siyasət həyata keçirdi ki, dahi mütəfəkkir adını daşıyan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vasitəsilə Azərbaycan torpaqlarının 30 illik işğaldan azad olunmasını Müzəffər Ali Baş Komandan İlham Əliyevlə, rəşadətli Azərbaycan ordusu ilə, doğma Azərbaycan xalqı ilə birgə qeyd etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin və rəşadətli Azərbaycan Ordusunun 2020-ci ildə-"Könüllülər ili"ndə 27 Sentyabrda başlayıb 44 Gün davam edən haqq davamızda 8 noyabrda əldə edilmiş Zəfərdən sonra gələn 2021-ci ilin Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Nizami Gəncəvinin adı ilə başlaması da həyata keçirilən və düşünülmüş uğurlu daxili-xarici siyasətin tərkib hissəsi idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi və himayəsi ilə yaradılan Nizami Gəncəvi Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumları sivlizasiyalararası dialoqun möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Azərbaycanın beynəlxalq arenadakı fəaliyyətinin nəticələri 44 Günlük Vətən Müharibəsində daha aydın göründü. Ölkəmizin haqlı mövqeyini, ədalət savaşını bir çox beynəlxalq təşkilatlar müdafiə etdi.

Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin də xüsusi xidmətləri oldu. Müzəffər Ali Baş Komandanımızn himayəsi altında istər Vətən Müharibəsinə qədərki dövrdə keçirilən Qlobal Bakı Forumlarında, istərsə də post-nüharibə dövründə Azərbaycan Liderinin iradəsilə bölgədə yaranan yeni reallığın dünya ictimaiyyətinə çatdırılmasında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müstəsna rolu oldu və olmaqdadır. Belə ki, müharibə dövründə Beynəlxalq Mərkəzin həmsədrlərinin 50-dən artıq üzvünün Azərbaycan xalqını, Prezidentini dəstəkləyən bəyanatlarının imzalanması bu qəbildən olan tarixi xidmətlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncam, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən etibarən Qlobal Bakı Forumlarının keçirilməsi, Gəncədə Heydər Əliyev Fondunun dəstəyi ilə Nizami Gəncəvi Muzeyinin inşa edilməsi,

“Xəmsə” miniatürlərinin xarici dillərə tərcümə edilməsi, akademik Nərgiz Paşayevanın təşəbbüsü və dəstəyi ilə Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Mərkəzinin yaradılması, “Azərbaycan Respubliksının Nizami Gəncəvi adına Qızıl Medalı”nın təsis edilməsi, 2021-ci ilin “Nizami Gəncəvi İli” elan eilməsi müasir Azərbaycan nizamişünaslığının ən mühüm tarixi uğurlarındandır.

ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi https://president.az/az/articles/view/2026. 26.aprel.2011
2. Azərbaycan Respublikasının Prezidentinin 2011-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncamı
3. Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi https://president.az/az/articles/view/59135. 09 mart.2023-cü il.
4. Akimova E. “Ulu Öndər yolunun davamı və sabahı İlham Əliyev. ”Azərbaycan”. qəzeti. 29 iyun, 2006
5. Əliyev İ. “Heydər Əliyevin davamçıları müstəqilliyi daha da möhkəmləndirdilər, Azərbaycanı qüdrətli dövlətə çevirdilər”, Prezident İlham Əliyevin nitqi: [ildönümə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim. “Azərbaycan”, 2017.- 11 may.
6. Əliyev F., Muxtarov Ə. “İlham Əliyevin Gəncə şəhərinə səfərləri”, Bakı.”Elm”. 20233.
7. Freyberqa V.V. “Bakı Forumunun inandırıcı qüvvəsi və əhəmiyyəti ilbəil artır”, “Xalq” qəzeti. 09 mart 2023
8. Həbibbəyli İ. “Prezident İlham Əliyevin Sərəncamı ilə 2021-ci il Azərbaycanda “Nizami Gəncəvi İli” elan edilib”, “Olaylar” qəzeti. 14 yanvar. 2021.
9. Həbibbəyli İ. “Böyük Azərbaycan şairi Nizami Gəncəvi”, Bakı, “Elm” 2021 səh 10
10. Həbibbəyli İ. “Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən İlham Əliyevə”, “Səs” qəzeti. 7 may, 2021.
11. Hüseynov R. “Nizami Gəncəvinin “Xəmsə”sində Türk qatı və Türk milli kimliyi”, “Risalə” Elmi araşdırmalar jurnalı, Bakı, “Elm və təhsil”, N.2. 2023.
12. Muxtarov Ə. “Nizami ona həftə sərgiləyənlərə deyil, varlığını əsrlərlə qoynunda yaşadanlara məxsusdur”, “Xalq” qəzeti, 12 mart 2023.
13. Muxtarov Ə. “Əsrlərin sirri”ndə əks olunan parlaq həqiqətlər”, “525-ci qəzet”, 12 may 2022-ci il.
14. Muxtarov Ə. “Şuşadan, Gəncədən dünyaya mesaj: Ədalət, sülh, birgəyaşaış və multikulturalizm”. “Azərtac-Elm və təhsil”, 09 iyun 2023-cü il.
15. “Mədəniyyət” qəzeti, 02 may 2014-cü il xüsusi nömrəsi.
16. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi https://az.wikipedia.org/wiki
17. Mədəniyyət. q- 2018.- 16 mart.
18. Rza X.U. “Bədii sözün tanrısı”, “Nizami Gəncəvi-lirika” “Sirlər xəzinəsi”, “Şərəfnamə”. Ön söz. Bakı, Yazıçı. 1988.
19. Seragəldin İ “Azərbaycan Qərblə müsəlman dünyası arasında körpü ola bilər”, “Kaspi” qəzeti. 23 dekabr 2017-ci il.
20. Sarıyeva İ. “Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi dünyada Azərbaycan mədəniyyətinə verilən böyük dəyər nümunəsi kimi...”. “Bakı xəbər” qəzeti, 12 yanvar 2015.
21. “Zəngin mədəniyyətimiz qürur mənbəyimizdir”, “Mədəniyyət” qəzeti. 8 yanvar, 2021.

***Алимухтар МУХТАРОВ***
***Доктор философии по филологии (PhD), доцент***

## НИЗАМИ ГЯНДЖЕВИ – 885: МИРОУСТРОЙСТВО НИЗАМИ ГЯНДЖЕВИ, ПРЕДСТАВЛЕННОЕ ЧЕЛОВЕЧЕСТВУ ПРЕЗИДЕНТОМ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанский поэт Низами Гянджеви, 885-летие, общечеловеческие идеи, юбилей, Nizami Ganjavi International Center, Глобальные Бакинские форумы

В статье исследуются сущность общечеловеческих идей великого азербайджанского поэта и мыслителя Низами Гянджеви, их актуальность в современную эпоху и продвижение на международном уровне. Анализируется важное место наследия Низами Гянджеви, основанного на принципах гуманизма, справедливости, толерантности, мультикультурализма, мира и сосуществования, в культурной политике Азербайджанского государства. Особое внимание уделяется целенаправленной деятельности Общенационального лидера азербайджанского народа Гейдара Алиева и Президента Азербайджанской Республики Ильхама Алиева по популяризации наследия Низами во всем мире.

В статье подробно освещаются история создания, цели и задачи Международного центра Низами Гянджеви, основанного в 2012 году, а также его высокий международный авторитет. На основе конкретных фактов обосновывается, что организуемые Центром Глобальные Бакинские форумы превратились в влиятельную международную платформу для обсуждения глобальных проблем современности. Также оценивается вклад Центра в продвижение азербайджанских реалий, национально-духовных ценностей и наследия Низами Гянджеви на международной арене. В результате исследования установлено, что инициативы и проекты, реализуемые под патронажем Президента Ильхама Алиева, сыграли важную роль в донесении идей Низами Гянджеви до мирового сообщества и в развитии азербайджанского низмиеведения на глобальном уровне.

***Alimuxtar MUKHTAROV***
***PhD in Philology, Associate Professor***

## NIZAMI GANJAVI – 885: THE HUMANISTIC WORLDVIEW OF NIZAMI GANJAVI PRESENTED TO HUMANITY BY THE PRESIDENT OF AZERBAIJAN

### *SUMMARY*

*Keywords:* Azerbaijani poet Nizami Ganjavi, 885th anniversary, universal humanistic ideas, jubilee, Nizami Ganjavi International Center, Global Baku Forums

The article examines the essence of the universal ideas of the great Azerbaijani poet and thinker Nizami Ganjavi, their relevance in the modern era, and their promotion at the international level. It analyzes the significant place occupied by Nizami Ganjavi’s legacy, based on the principles of humanism, justice, tolerance, multiculturalism, peace, and coexistence, within the cultural policy of the Azerbaijani state. Particular attention is paid to

the purposeful activities carried out by the National Leader of the Azerbaijani people, Heydar Aliyev, and the President of the Republic of Azerbaijan, Ilham Aliyev, in promoting Nizami's heritage worldwide.

The article highlights the history, objectives, and functions of the Nizami Ganjavi International Center, established in 2012, as well as its growing international prestige. It substantiates with facts that the Global Baku Forums organized by the Center have become an influential international platform for discussing global challenges. The contribution of the Center to the promotion of Azerbaijan's realities, national and spiritual values, and the heritage of Nizami Ganjavi on the international stage is also assessed. The study concludes that the initiatives and projects implemented under the patronage of President Ilham Aliyev have played a significant role in conveying Nizami Ganjavi's ideas to humanity and in advancing Azerbaijani Nizami studies on a global scale.

***Daxil oldu: 25.05.2026-cı il***